**Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Macarıstanda təqaüdlü təhsilə dair mütəmadi verilən suallar:**

1. **Müsabiqədə iştirak üçün necə müraciət etməliyəm ?**

Təqaüd proqramına müraciət edəcək iddiaçılar elanın tələblərinə uyğun olaraq, hər iki ölkəninmüvafiq elektron ərizə sisteminə müraciət etməlidir:

1- ci Macarıstan elektron ərizə sistemi doldurulub təsdiq edilməlidir: https://apply.stipendiumhungaricum.hu/

2- ci Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət təsdiq edilməlidir: https://portal.edu.az/

Hər iki müraciət formasını düzgün şəkildə tamamlamış və müsahibə mərhələsində iştirak üçün əsas meyarlara cavab verən şəxslər müsahibədə iştirak etmələri üçün dəvət olunacaqlar.

2. **Hansı ixtisaslar üzrə Macarıstanda təhsil ala bilərəm ?**

Macarıstan ali təhsil müəssisələrində aşağıdakı ixtisas istiqamətləri üzrə təhsil ala bilərsiniz:

**tam bakalavriat və magistratura təhsil proqramları üzrə**

- kənd təsərrüfatı, su idarəetməsi- 10 təqaüd;
- təbiət elmləri, davamlı inkişaf- 20 təqaüd,
- turizm - 15 təqaüd;
- mühəndislik, informasiya texnologiyaları, texnologiyalar- 75 təqaüd;
- iqtisadiyyat, biznes və idarəetmə elmləri - 55 təqaüd;

**doktorantura təhsili üzrə**

- istənilən maraq dairəsi- 25 təqaüd

**Qeyd:** ixtisaslar elanın keçid bölməsində qeyd olunmuşdur.

3. **Təqaüd Proqramında bir təhsil ili üzrə Macarıstan tərəfindən nə qədər təqaüd verilir ?**

Aylıq təqaüd ev sahibi universitet tərəfindən veriləcəkdir. Aylıq təqaüdlər qarşı tərəfin mövcud qanunvericiliyə əsasən aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Bakalavriat və magistratura proqramları üçün: 43.700 Macarıstan forinti

Doktorantura proqramları üçün: təlim və tədqiqat dövründə aylıq 140.000, dissertasiya dövründə isə aylıq 180.000 Macarıstan forinti

4. **Mən bu il Macarıstanda ali təhsil müəssisəsinə artıq qəbul olmuşam. Təhsilimi təqaüd hesabına davam etdirə bilərəm ?**

Hökumətlərarası saziş çərçivəsində tələbələrin müraciət edə bildikləri ixtisaslar sazişə uyğun müəyyənləşdirilmişdir. Təhsilinizi qəbul olduğunuz universitetdə qəbul olduğunuz ixtisas üzrə o halda davam etdirə bilərsiniz ki, həmin ixtisasın saziş çərçivəsində maliyyələşdirilməsi nəzərdə tutulmuşdur və siz Elm və Təhsil Nazirliyinin keçirdiyi müsabiqədən uğurla keçmisiniz. Həmçinin, hazırda təhsil aldığınız universitetdə akademik göstəricilərini yaxşı olmalıdır ki, universitet sizin namizədliyinizi sözügedən təqaüd üçün təqdim edə bilsin. Eyni zamanda, təhsil aldığınız ali təhsil müəssisəsinin adı Macarıstan tərəfindən təqdim olunmuş müvafiq siyahıda yer almalıdır.

5. **Hökumətlərarası saziş çərçivəsində Macarıstanda təhsil hansı dildədir ?**

Macarıstan ali məktəblərində tələbələr macar və ya ingilis dilində təhsil ala bilərlər.

6. **Macar dilini bilməyən tələbə Macarıstan ali məktəblərində necə təhsil ala bilər ?**

Macar dilində ali təhsilə başlamazdan öncə tələbələr Balassi İnstitutunda bir illik hazırlıq kursu keçməlidirlər. Lakin həmin tələbələr müəyyən səviyyədə ingilis dili biliklərinə sahib olmalıdır.

7. **Macarıstan ali məktəblərində ingilis dilində təhsil almaq üçün hansı səviyyədə dil biliyi kifayət edir ?**

Namizədin seçilmiş proqrama uyğun dil biliyi səviyyəsi sertifikatı bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə IELTS sertifikat balı minimum 6.5 və ya digər beynəlxalq dil sertifikatlarının bu göstəriciyə ekvivalentini təşkil etməlidir;

8. **Bakalavriat və ya magistratura təhsilimi tam ingilis dilində almışam. Bu halda IELTS və ya TOEFL dil sertifikatı təqdim etməliyəm ?**

Bəli, hər bir halda ingilis dili biliyinə dair sübütedici sənəd kimi xarici dil sertifikatı təqdim olunmalıdır.

9. **Mən IELTS və ya TOEFL imtahan nəticəmi 15.01.2024-cü il tarixindən sonra əldə edə biləcəyəm. Sertifikatı həmin tarixdən sonra aidiyyəti üzrə təqdim edəcəyim halda müsahibəyə dəvət edilə bilərəm ?**

Dil sertifikatı ən geci 30 yanvar 2024-cü il tarixinədək elektron ərizə sisteminə daxil edilə bilər.

10. **Mənim SAT nəticəm var, Macarıstan təqaüd proqramına müraciət edə bilərəm ?**

DİM imtahanlarında iştirak etməyən gənclərin akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT, qızıl/gümüş/bürünc medal sahibi və s.) həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 70%-indən (məsələn: SAT üzrə min 1100 bal) az olmamalıdır.

**11. Mənim SAT və ya DİM balım yoxdursa, təqaüd proqramına müraciət edə bilərəm ?**

Bakalavriat təhsil səviyyəsinə müraciət edən iddiaçılar Beynəlxalq təhsil proqramları üzrə (IB, A level, AP) təhsil alıblarsa və aşağıda müəyyən olunmuş keçid ballarının minimum və maksimum hədləri aralığında göstəricilərini təsdiq edən arayışın surətini təqdim edə bilirlərsə, bu halda bu namizədlərdən DİM qəbul imtahanın nəticəsi və SAT balı tələb olunmur:

- Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme) – 25-35;
- Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education) – C və ya B (müvafiq üç imtahan fənni üzrə);
- Yüksək yerləşdirmə (Advanced Placement) – 3 və ya 4 (müvafiq üç imtahan fənni üzrə).

**12. Macarıstanda təhsilə müraciət etmək üçün lazım olan sənədlərin siyahısını haradan əldə edə bilərəm ?**

https://htp.edu.az/az/index internet səhifəsinin elanlar bölməsindən Macarıstan ali məktəblərinə qəbul ilə bağlı tələb olunan bütün sənədlərin siyahısını əldə edə bilərsiniz.

**13. Müsahibəyə gələrkən sənədlərin orijinallarını özümüzlə gətirək ?**

Müsahibəyə gələrkən hər iki ölkənin elektron ərizə sisteminə müraciətinizin çap formasını və həmin sistemə yüklədiyiniz sənədlərin surətlərini (eyni olduğu üçün sənədlər 1 nüsxə) özünüzlə gətirməyiniz xahiş edilir**(müsahibə əyani olacağı təqdirdə).**

**14. Mən hazırda bakalavriat səviyyəsi üzrə 3-cü kurs tələbəsiyəm. Eyni səviyyə üzrə təhsilimi Macarıstanda davam etdirə bilərəm ?**

Ölkənin yerli ali təhsil müəssisələrində bakalavriat, magistratura və ya doktorantura səviyyəsində təhsil alan şəxs təhsilinin 50%-dən çoxunu tamamlamamış olmalıdır.

**15. Mən bakalavr təhsilimi İqtisadiyyat/Mühəndislik/İnformasiya texnologiyaları və s. ixtisası üzrə almışam. Magistratura təhsil səviyyəsi üzrə hansı ixtisasa müraciət edə bilərəm ?**

Bakalavrdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisası xaricdə oxumaq üçün seçdiyi ixtisaslara uyğun olmağı tövsiyə olunur.

**16. Doktorantura səviyyəsi üzrə müraciət üçün ixtisas məhdudiyyəti var ?**

Doktorantura səviyyəsi üzrə ixtisas məhdudiyyəti yoxdur, müvafiq kvota çərçivəsində

istənilən maraq dairəsi üzrə müraciət oluna bilər. Lakin, müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisası xaricdə oxumaq üçün seçdiyi hər 2 ixtisasa uyğun olmağı tövsiyə olunur (ixtisasların uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il, 8 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı"na əsasən müəyyən olunur).

**17. Hal-hazırda 4-cü kurs tələbəsi olduğum üçün diplom təqdim edə bilməyəcəyəm. Qiymətlərin çıxarışını təqdim etmək olar ?**

Hazırda təhsil aldığınız ali məktəb tərəfindən verilmiş təhsil haqqında arayış və transkripti (fənlər üzrə akademik göstəricilər) təqdim etməklə siz müsabiqədə iştirak edə bilərsiniz. (ingilis dilinə tərcümə əlavə edilməklə). Çatışmayan sənədlər olduğu təqdirdə (diplom, diplom əlavəsi, attestat və s.), onları 1 avqust 2024-cü il tarixinədək Macarıstan tərəfinin elektron ərizə sisteminə yükləməlisiniz.

**18. Mən DİM (əvvəlki TQDK) imtahanında 390 bal toplamışam, Macarıstan təqaüd proqramına müraciət edə bilərəm ?**

DİM balı tələbi yalnız bakalavriat təhsil səviyyəsinə müraciət edən namizədlərə şamil olunur. Bakalavriat təhsil səviyyəsi üzrə təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinintələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 400, digər sahələr üzrə ən azı 500 bal toplamalıdırlar;

**19. Mənim 18 yaşım 2023-cü ilin oktyabr ayında tamam olacaqdır. Macarıstan təqaüd proqramına müraciət edə bilərəm ?**

Xeyr. Yalnız 31 avqust 2024-cü ilə kimi 18 yaşı tamam olmuş namizədlər Macarıstan təqaüd proqramına müraciət edə bilərlər ("Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 6 yanvar 2021-ci il tarixində imzalanmış 2021-2023-cü illər üçün "Stipendium Hungaricum" proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandum"un tələbinə əsasən, müvafiq tədris ilində 31 avqust tarixinə qədər 18 yaşı tamam olmayan Azərbaycan Respublikası vətəndaşları təqaüd proqramına müraciət edə bilməzlər).

**20. Tələbəyə hərbi xidmətdən möhlət hüququ verilirmi ?**

"Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikası Qanunu"nun 21.1.5-ci bəndinə əsasən, xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələrində, tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək çağırışa möhlət verilir. Lakin eyni təhsil səviyyəsi üzrə ikinci dəfə müraciət edən şəxslər hərbi bilet və ya hərbi xidmətdən möhlət hüququnu əks etdirən sənədi təqdim etməlidirlər.

**21. Təqaüd proqramı çərçivəsində qarşılanan xərclər hansılardır ?**

Macarıstan tərəfindən:

- ödənişsiz təhsil;
- universitet yataqxanasında yaşayış;

- tibbi sığorta;
- aylıq təqaüd

**Qeyd: Tələbələrin beynəlxalq nəqliyyat xərcləri şəxsi vəsaitləri hesabına qarşılanır.**

22. **Mən bundan öncəki təhsilimi xaricdə bitirmişəm, diplomun və diplom əlavəsinin tanınmasına dair sənəd təqdim etməliyəm ?**

Bəli, öncəki ali təhsil haqqında sənədin Azərbaycan Respublikası ərazisində tanınmasına dair sənəd təqdim etməlisiniz. Müvafiq sənədi əldə etməmisinizsə, ətraflı məlumatı aşağıdakı keçiddən əldə edə bilərsiniz:

https://tkta.edu.az/

23. **Mən Macarıstan təqaüd proqramı çərçivəsində bakalavriat səviyyəsində sonuncu kurs tələbəsiyəm, növbəti səviyyə üçün yenidən Macarıstan təqaüd proqramına müraciət edə bilərəm ?**

Bəli, Macarıstan təqaüd proqramı çərçivəsində sonuncu kursda təhsil aldığınız təqdirdə, növbəti təhsil səviyyəsi üzrə müraciət edə bilərsiniz.

24. **Mən bakalavriat/magistratura/doktorantura səviyyəsi üzrə Macarıstan təqaüd proqramı çərçivəsində təhsil almışam. Eyni təhsil səviyyəsi üzrə bu proqrama təkrar müraciət edə bilərəm ?**

Macarıstan təqaüd proqramının tələbinə əsasən, eyni təhsil səviyyəsi üzrə bu proqrama yenidən müraciət etmək mümkün deyildir.

25. **Mən dövlət hesabına bakalavriat/magistratura/doktorantura səviyyəsi üzrə təhsil almışam. Eyni təhsil səviyyəsi üzrə Macarıstan təqaüd proqramına təkrar müraciət edə bilərəm ?**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən (...dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir), Azərbaycan ali təhsil müəssisələrində yaxud xaricdə dövlət hesabına ("2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və hökumətlərarası müqavilələr yolu ilə) təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər.

26. **Mən bir akademik ildə iki fərqli ölkənin təqaüd proqramına müraciət edə bilərəm ?**

Namizədlər, bir akademik ildə ilkin seçimi Elm və Təhsil Nazirliyi tərəfindən aparılan yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər.

27. **Yalnız attestat balı və IELTS göstəriciləri ilə təqaüd proqramına müraciət edə bilərəm?**

    Xeyr. Müsabiqənin müsahibə mərhələsinə yalnız elanda göstərilən meyarlara cavab verən şəxslər buraxılır.